Azərbaycan TEXNİKİ Universiteti

# Azərbaycan Texniki Universitetinin

# Keyfiyyət Təminatı Siyasəti

Azərbaycan Texniki Universitetinin Elmi Şurasının 29 noyabr 2024 -cü il tarixli iclasının qərarı ilə qəbul edilmişdir

Bakı -2024

## Mündəricat

I. GİRİŞ....5
1.1 Məqsəd....5
1.2 Vizyon....5
1.3 Missiya....5
1.4 Öhdəlik və Əsaslandırma....5
1.5 Əhatə dairəsi və onun tətbiqi....6
II. KEYFİYYƏT ANLAYIŞI....6
2.1 Keyfiyyət anlayışının əsas aspektləri:....7
III. KEYFİYYƏT TƏMİNATI İDARƏETMƏ STRUKTURU....8
3.1 Keyfiyyət təminatı Mexanizmləri:....9
3.2 Daxili Keyfiyyət təminatı:....9
3.3 Xarici keyfiyyət təminatı:....9
IV. KEYFİYYƏT MƏDƏNİYYƏTİ:....10
4.1 Şəffaflıq və hesabatlılıq:....10
4.2 Davamlı təkmilləşdirmə:....10
4.3 İştirakçılıq və inklüzivlik:....10
4.4 Dəyərlərin və etik prinsiplərin müəyyən edilməsi:....11
4.5 Təlim və inkişaf:....11
4.6 Əlaqələndirmə və yeniliklərə açıq olma:....11
4.7 Keyfiyyət Dəyərlərinin Yayılması:....11
V. AZTU-DA KEYFİYYƏTİN TƏMİNATI....11
5.1. Tədris bölmələri:....12
5.2. Elmi-tədqiqat bölmələri:....12

**İlkin sənəd: 13.07.2022**
**Yeni sənəd: 08.09.2024**
**Təsdiq tarixi: 29.11.2024**

5.3 İdarəetmə bölmələri: 13
5.4 Beynəlxalq əlaqələr və əməkdaşlıq bölməsi: 13
5.5 Maliyyə və İnzibati İşlər Bölmələri: 13
VI. QANUNVERİCİLİK 14

## Keyfiyyət Təminatı ilə Bağlı Lüğət

| Abreviatura | Tam Adı | İzahı |
|---|---|---|
| **ESG** | Avropa ali təhsil məkanında keyfiyyət təminatı üzrə standartlar və təlimatlar | Avropa ölkələrində ali təhsilin keyfiyyətinin artırılması üçün standartlar və tövsiyələr toplusu |
| **ENQA** | Ali Təhsildə Keyfiyyətə Təminat üzrə Avropa Assosiasiyası | Avropa ölkələrində ali təhsildə keyfiyyət təminatını inkişaf etdirmək məqsədi daşıyan qurum |
| **TKTA** | Təhsildə Keyfiyyət Təminatı Agentliyi | Müxtəlif təhsil müəssisələrinin keyfiyyətinin artırılması üçün fəaliyyət göstərən qurum |
| **AzMKÇ** | Azərbaycan Respublikasının Ömürboyu Təhsil üzrə Milli Kvalifikasiyalar Çərçivəsi | Ömürboyu təhsil sistemində müxtəlif ixtisaslar üçün keyfiyyət standartlarını müəyyən edən çərçivə |
| **Keyfiyyət** | - | Hər hansı bir obyektin (məhsulun və ya xidmətin) konkret müəyyən olunan və nəzərdə tutulan ehtiyaclara, standartlara cavab vermə qabiliyyətini özündə ehtiva edən xüsusiyyət və əlamətlərin cəmi |
| **Daxili Keyfiyyət Təminatı** | - | Təhsil müəssisəsinin fəaliyyətinin dövlət təhsil standartlarına uyğunluğunu, müasir tələblərə uyğun tədris mühitinin yaradılmasını və fəaliyyətin özünütəhlil əsasında davamlı inkişafını təmin edən daxili idarəetmə qiymətləndirmə sistemi |
| **Xarici Keyfiyyət Təminatı** | - | Təhsil müəssisəsinin fəaliyyətinin keyfiyyət səviyyəsinin və onun daxili keyfiyyət təminatı sisteminin effektivliyinin qiymətləndirilməsi prosesi |

**İlkin sənəd: 13.07.2022**
**Yeni sənəd: 08.09.2024**
**Təsdiq tarixi: 29.11.2024**

# Keyfiyyət Təminatı Siyasəti

| | | |
|---|---|---|
| **Keyfiyyətin Təmin Olunması** | - | Milli və ya institusional səviyyədə qəbul olunmuş proses, yaxı proseslərdir; keyfiyyətin qorunması və artırılması |

**Əsas Anlayışlar**

| | |
|---|---|
| Akkreditasiya: | Təhsil proqramlarının və təşkilatların keyfiyyətinin müstəqil ekspertlər tərəfindən qiymətləndirilməsi |
| Monitorinq: | Təhsil müəssisələrinin fəaliyyətlərinin, tədris proseslərinin və keyfiyyət təminatı sisteminin mütəmadi yoxlanılması |
| Benchmarking: | Müxtəlif universitetlərin fəaliyyətlərinin müqayisə edilməsi və ən yaxşı təcrübələrin öyrənilməsi |
| Daxili Qiymətləndirmə: | Təhsil müəssisəsinin öz fəaliyyətlərini qiymətləndirmək və inkişaf etdirmək üçün özünütəhlil prosesi |
| Xarici Qiymətləndirmə: | Müstəqil ekspertlərin və ya təşkilatların təhsil müəssisələrinin fəaliyyətlərini qiymətləndirməsi |

**İlkin sənəd: 13.07.2022**
**Yeni sənəd: 08.09.2024**
**Təsdiq tarixi: 29.11.2024**

## I. GİRİŞ

Azərbaycan Texniki Universiteti olaraq, keyfiyyətə olan öhdəliyimiz təhsil, tədqiqat və idarəetmə sahələrində mükəmməlliyə nail olmaqdır. Biz, tələbələrimizə, əməkdaşlarımıza və digər maraqlı tərəflərə yüksək standartlarda xidmət göstərməyi hədəfləyirik. Keyfiyyət siyasətimiz, universitetimizin fəaliyyətlərinin əsasını təşkil edir və davamlı inkişafı təşviq edir.

### 1.1 Məqsəd

Məqsədimiz, təhsil, tədqiqat və idarəetmə sahələrində müasir keyfiyyət standartlarına uyğun xidmətlər təqdim etməkdir. Bu məqsədə çatmaq üçün, keyfiyyət siyasətimiz aşağıdakı əsas prinsipləri əhatə edir:

- **Mükəmməllik**: Tələbələrə və maraqlı tərəflərə yüksək keyfiyyətli təhsil və xidmətlər təqdim edərək mükəmməlliyə nail olmaq.
- **Davamlı İnkişaf**: Fəaliyyətlərimizdə davamlı inkişafı təşviq edərək, proseslərin və xidmətlərin davamlı olaraq təkmilləşdirmək.
- **Məmnuniyyət**: Tələbələrin, əməkdaşların və digər maraqlı tərəflərin məmnuniyyətini artırmaq üçün onların ehtiyac və gözləntilərinə uyğun xidmətlər təqdim etmək.
- **Yenilikçilik**: Yeni texnologiyalar və metodologiyaların tətbiqi ilə innovativ yanaşmaları həyata keçirməyi hədəfləmək.
- **Sənaye əməkdaşlığı**: Müxtəlif sənaye sahələri ilə sıx əməkdaşlıq edərək, keyfiyyət məqsədlərinə nail olmaq.

### 1.2 Vizyon

Dünyanın ən qabaqcıl texniki universitetlərindən biri olmaqla, texnologiya və mühəndislik sahəsində mükəmməllik və innovasiyaya əsaslanaraq qlobal elm və sənaye inkişafına rəhbərlik etməkdir.

### 1.3 Missiya

Müasir texnologiyalar, mühəndislik prinsipləri və yenilikçi düşüncə ilə tələbələrimizi yüksək ixtisaslı mütəxəssislər kimi yetişdirmək, elmi tədqiqatlar və sənaye əməkdaşlıqları vasitəsilə texniki biliklərin inkişafına və tətbiqinə töhfə vermək əsas vəzifəmizdir.

### 1.4 Öhdəlik və Əsaslandırma

Universitet olaraq, keyfiyyət siyasətimizi həyata keçirmək üçün bütün səviyyələrdə məsuliyyət daşıyırıq. Təşkilatımızın rəhbərliyi, keyfiyyət standartlarının qorunması və inkişaf etdirilməsi üçün strateji qərarlar qəbul edir və bu prinsiplərin tətbiqini təmin edir. Hər

bir əməkdaşımızın keyfiyyətə olan öhdəliyi, mükəmməl nəticələr əldə etmək üçün vacibdir. Keyfiyyət siyasətimiz, müntəzəm olaraq nəzərdən keçirilir və ehtiyac olduqda yenilənir.

### 1.5 Əhatə dairəsi və onun tətbiqi

- Akademik keyfiyyətin qiymətləndirilməsi
- Akkreditasiya və monitorinq proseslərinin aparılması
- Məmnunluq və qiymətləndirmə sorğularının təşkil edilməsi
- Təlim və təşkilatı inkişafın dəstəklənməsi
- Maliyyə və resursların səmərəli istifadəsi
- Universitetin prioritetlərinin Dayanıqlı İnkişaf Məqsədlərinə uyğunluğu
- Təhsilverənlər və təhsilalanların birgə fəaliyyətinin qurulması
- Sənaye əməkdaşlığı və sosial əlaqələrin artırılması
- Maraqlı tərəflərin qərarvermə proseslərinə cəlb edilməsi

**Strateji Səviyyə:** Universitetin strateji qərarları və planlaşdırma proseslərini keyfiyyət siyasətinə uyğunlaşdırmaq;

**Operativ Səviyyə:** Gündəlik fəaliyyətlər və əməliyyatları keyfiyyət standartlarına uyğun şəkildə həyata keçirmək;

**Monitorinq:** Keyfiyyət siyasətinin tətbiq olunmasını izləmək və qiymətləndirmək üçün müntəzəm monitorinq prosesləri həyata keçirmək;

**Dəyərləndirmə:** Keyfiyyət siyasətinin effektivliyini qiymətləndirmək və mümkün düzəlişləri müəyyənləşdirmək məqsədilə mütəmadi dəyərləndirmələr aparmaq.

## II. KEYFİYYƏT ANLAYIŞI

**Keyfiyyət anlayışı** təhsil, biznes, sənaye və digər sahələrdə fəaliyyətin məhsuldarlığını və səmərəliliyini artırmaq üçün nəzərdə tutulmuş bir konsepsiyadır. Keyfiyyət anlayışı müxtəlif meyarlar və standartlar əsasında məhsulun, xidmətin və ya fəaliyyətin

mükəmməllik səviyyəsini ifadə edir. Təhsil sahəsində keyfiyyət anlayışı, xüsusilə universitetdə, tədrisin, tədqiqatların və idarəetmə proseslərinin yüksək standartlara uyğun təşkilini və bu sahələrdə davamlı təkmilləşməni əhatə edir.

**2.1 Keyfiyyət anlayışının əsas aspektləri:**

| | |
|---|---|
| **Davamlı Təkmilləşdirmə:** | Keyfiyyət anlayışı statik bir vəziyyət deyil, əksinə, daim inkişaf edən bir prosesdir və davamlı təkmilləşdirmə prinsipinə əsaslanır. AzTU öz xidmətlərini və prioritetlərini daim yeniləyir, effektivliyini artırır və dəyişən tələblərə uyğunlaşdırır. |
| **Standartlara Uyğunluq:** | Keyfiyyətin qiymətləndirilməsi müəyyən standartlar və meyarlar əsasında aparılır. Universitetdə bu standartlar beynəlxalq və milli akkreditasiya qurumları, təhsil nazirliyi və digər müvafiq təşkilatlar tərəfindən müəyyən edilir. Təhsil proqramlarının keyfiyyətli hesab olunması üçün müəyyən edilmiş standartlara cavab verməsini təmin edir. |
| **Tələbə Məmnuniyyəti:** | Təhsil sahəsində keyfiyyət anlayışının əsas göstəricilərindən biri tələbələrin ehtiyac və gözləntilərinin qarşılanmasıdır. AzTU tələbələrə yüksək akademik bilik, inkişaf etmiş peşə bacarıqları və cəmiyyətə fayda verən şəxsiyyət kimi formalaşmaq imkanı yaradır. Tələbə məmnuniyyəti həm də tələbələrin təhsil təcrübəsinin, əldə etdikləri biliklərin və gələcək karyera imkanlarının səviyyəsi ilə ölçülür. |
| **Səmərəlilik və Effektivlik:** | Keyfiyyət anlayışı səmərəlilik və effektivlik prinsiplərinə əsaslanır. Bu, resursların optimal istifadəsi ilə maksimum nəticə əldə etməyi nəzərdə tutur. Universitetdə bu, tədris proseslərinin effektivliyindən, dərs proqramlarının uyğunlaşdırılmasından və təhsilin nəticələrinə nail olmaq üçün lazımi şəraitin yaradılmasından ibarətdir. |
| **İnnovasiya və Yenilikçilik:** | Keyfiyyət anlayışı həm də innovasiya ilə sıx əlaqəlidir. AzTU dəyişən texnologiyalara və təhsil tələblərinə uyğunlaşaraq, yeni tədris metodlarını və texnologiyalarını tətbiq edir, tədqiqat işlərini innovativ yollarla təşkil edir. Universitetdə keyfiyyət innovasiya və yenilikçiliyi dəstəkləyən mühit yaradır. |
| **Etibarlılıq və Davamlılıq:** | Keyfiyyət etibarlı nəticələrə nail olmağı və bu nəticələrin uzun müddət ərzində qorunmasını təmin etməyi nəzərdə tutur. AzTU-da bu, yüksək akademik standartlara riayət etmək, tələbələrin |

| | |
|---|---|
| | gələcəkdə uğur qazanması üçün güclü baza yaratmaq və tədris prosesində etibarlılı edilməsidir. |
| **Qiymətləndirmə və Monitorinq:** | Keyfiyyət anlayışının mühim bir hissəsi mütəmadi olaraq qiymətləndirmə və monitorinq prosesləridir. Universitet öz fəaliyyətlərinin, təhsil proqramlarının, elmi işlərin və tələbə nəticələrinin keyfiyyətini qiymətləndirmək üçün həm daxili, həm də xarici monitorinq və qiymətləndirmə mexanizmlərindən istifadə edir. |

## III. KEYFİYYƏT TƏMİNATI İDARƏETMƏ STRUKTURU

**Keyfiyyət təminatı idarəetmə strukturu** universitetdə təhsilin səviyyəsini yüksəltmək, təhsil və tədqiqat fəaliyyətlərinin səmərəliliyini təmin etmək üçün təşkil edilmiş sistemdir.






**İlkin sənəd: 13.07.2022**
**Yeni sənəd: 08.09.2024**
**Təsdiq tarixi: 29.11.2024**

### 3.1 Keyfiyyət təminatı Mexanizmləri:

Keyfiyyət təminatı mexanizmləri təhsilin, tədqiqatların və idarəetmənin keyfiyyətini təmin etmək üçün həyata keçirilən siyasət və proseslər toplusudur. Keyfiyyət siyasəti bu mexanizmlər vasitəsilə aşağıdakıları hədəfləyirlər:

- Tədris prosesinin keyfiyyətini artırmaq;
- Dərsliklər, dərs proqramları və digər akademik materialların yeniləmək;
- Tədqiqatların və elmi işlərin yüksək səviyyədə həyata keçirilməsini təmin etmək;
- Akademik və inzibati personalın bacarıqlarının inkişafına dəstək olmaq;
- Universitetin idarəetmə orqanları və struktur bölmələri arasında əlaqənin təkmilləşdirmək.

### 3.2 Daxili Keyfiyyət təminatı:

Daxili keyfiyyət təminatı mexanizmləri universitetin öz daxilində fəaliyyət göstərir və tədris prosesinin səmərəliliyini qiymətləndirmək üçün daxili nəzarət vasitələri yaradır. Daxili keyfiyyət təminatı aşağıdakı istiqamətləri əhatə edir:

- **Daimi qiymətləndirmə:** Tədris proqramlarının, kursların, müəllim heyətinin və tələbələrin fəaliyyətlərinin mütəmadi olaraq dəyərləndirilməsi;
- **Təhsilverənlərin və təhsilalanların məmnuniyyəti:** Tələbələr və akademik heyət arasında sorğular, görüşlər və müzakirələr vasitəsilə onların məmnunluq səviyyəsinin ölçülməsi və təkliflərin nəzərə alınması;
- **Akademik nailiyyətlərin monitorinqi:** Təhsil nəticələrinin mütəmadi olaraq izlənilməsi və yaxşılaşdırılması üçün tədbirlərin keçirilməsi:
- **Peşəkar inkişaf:** Davamlı təlim və seminarların təşkil edilməsi;
- **Maliyyə və idarəetmə nəzarəti:** Universitetin maliyyə resurslarının effektiv istifadəsi və idarəetmə prosedurlarının təkmilləşdirilməsi.

### 3.3 Xarici keyfiyyət təminatı:

Xarici keyfiyyət təminatı universitetin daxili sistemindən kənar qurumlar və ya təşkilatlar tərəfindən həyata keçirilir, beynəlxalq və milli səviyyədə standartlara uyğun olmağı təmin etmək məqsədi daşıyır. Xarici keyfiyyət təminatı mexanizmləri:

- **Akkreditasiya:** Təhsil proqramlarının və universitetin ümumi fəaliyyətinin müstəqil qurumlar tərəfindən qiymətləndirilməsi və təsdiqlənməsi.
- **Monitorinq və audit:** Xarici auditorlar tərəfindən universitetin fəaliyyətlərinin və idarəetmə proseslərinin yoxlanılması.
- **Milli və beynəlxalq standartlar:** Universitetin milli və beynəlxalq keyfiyyət standartlarına uyğunluğunu təmin etmək üçün müvafiq meyarlar əsasında qiymətləndirilməsi.
- **Benchmarking:** Universitetin fəaliyyətlərinin digər qabaqcıl universitetlərlə müqayisə edilməsi və yaxşı təcrübələrin öyrənilməsi.

## IV. KEYFİYYƏT MƏDƏNİYYƏTİ:

**Keyfiyyət mədəniyyəti** universitetdə akademik və inzibati heyətin, eləcə də təhsilalanların keyfiyyətin davamlı təkmilləşdirilməsi məqsədi ilə ortaq dəyərlərə və yanaşmalara malik olduğu bir mühitin yaradılmasına yönəlmiş konsepsiyadır. Universitet daxilində keyfiyyət mədəniyyəti yaradılarkən təhsilin, tədqiqatların və idarəetmənin bütün aspektlərində yüksək keyfiyyət standartlarına uyğun olmasına diqqət yetirilir. Aşağıda bu konsepsiyanın əsas elementləri təsvir edilmişdir:

### 4.1 Şəffaflıq və hesabatlılıq:

Keyfiyyət mədəniyyəti şəffaflıq və hesabatlılıq prinsiplərinə əsaslanır. Universitetdə hər kəs öz fəaliyyətləri, nailiyyətləri barədə aydın və açıq məlumat verməli, bu fəaliyyətlərin nəticələrini obyektiv olaraq qiymətləndirilməsinə şərait yaratmalıdır. Bu, universitet daxilində qarşılıqlı etimadın və cavabdehlik hissinin möhkəmləndirilməsinə kömək edir.

### 4.2 Davamlı təkmilləşdirmə:

Keyfiyyət mədəniyyəti davamlı təkmilləşmə prinsipinə əsaslanır. Universitetin bütün fəaliyyət sahələrində, o cümlədən təhsil proqramlarında, tədqiqat işlərində, inzibati xidmətlərdə və tələbə dəstəyində inkişaf üçün imkanlar daim axtarılmalıdır. Bu yanaşma universitetin rəqabət qabiliyyətini artıraraq müasir təhsil və tədqiqat tələblərinə uyğunlaşmasını təmin edir.

### 4.3 İştirakçılıq və inklüzivlik:

Keyfiyyət mədəniyyətinin uğurla tətbiq edilməsi üçün universitetin bütün üzvlərinin prosesə fəal şəkildə cəlb edilməsi vacibdir. Tələbələr, müəllim heyəti, inzibati işçilər və universitet rəhbərliyi birgə əməkdaşlıq etməli, keyfiyyətin artırılması ilə bağlı ideya və

təkliflər təqdim etməlidirlər. İştirakçılıq universitetin bütün səviyyələrində qərar qəbul etmə prosesində inklüzivliyin təmin edilməsinə və müxtəlif fikirlərin nəzərə alınmasına gətirib çıxarır.

**4.4 Dəyərlərin və etik prinsiplərin müəyyən edilməsi:**

Keyfiyyət mədəniyyəti müəyyən dəyərlər və etik prinsiplərə əsaslanmalıdır. Tədris, tədqiqat və idarəetmə prosesləri universitetin ümumi dəyərlərinə, həmçinin akademik etikanın yüksək standartlarına uyğun olaraq həyata keçirilməlidir. Bu, həm tələbələr, həm də akademik heyət üçün məsuliyyət hissi və müsbət davranış standartları yaradır.

**4.5 Təlim və inkişaf:**

Keyfiyyət mədəniyyətinin inkişaf etdirilməsi üçün universitetdə mütəmadi təlimlər, seminarlar və peşəkar inkişaf proqramları təşkil olunmalıdır. Akademik heyət və inzibati işçilər daim öz bilik və bacarıqlarını təkmilləşdirməli, keyfiyyətin yüksəldilməsi istiqamətində yeni yanaşmaları mənimsəməlidir.

**4.6 Əlaqələndirmə və yeniliklərə açıq olma:**

Keyfiyyət mədəniyyəti çeviklik və yeniliklərə açıq olmağı tələb edir. Dəyişən tələblərə, yeni çağırışlara uyğunlaşmaq, yeni texnologiyaların və tədris metodlarının tətbiqi universitetin davamlı inkişafı üçün vacibdir. Universitet həm daxili, həm də xarici mühitdə baş verən dəyişikliklərə açıq olmalı və müvafiq islahatlar həyata keçirməlidir.

**4.7 Keyfiyyət Dəyərlərinin Yayılması:**

Keyfiyyət mədəniyyəti universitet daxilində və kənarda geniş şəkildə yayılmalıdır. Akademik və inzibati heyət üzvləri, eləcə də tələbələr keyfiyyət dəyərlərini bölüşməli və onlara uyğun hərəkət etməlidir. Bu dəyərlərin yayılması universitetin nüfuzunu artıraraq onu cəmiyyətdə etibarlı və məsuliyyətli bir qurum kimi təqdim edir.

## V. AZTU-DA KEYFİYYƏTİN TƏMİNATI

Azərbaycan Texniki Universitetinin (AzTU) müxtəlif bölmələrə yanaşması keyfiyyətin yüksəldilməsi, tələbə məmnuniyyətinin artırılması və elmi-tədqiqat işlərinin səmərəliliyinin artırılması məqsədini daşıyır. Hər bir bölməyə xüsusi yanaşma ilə universitet öz tədris, tədqiqat və idarəetmə proseslərinin davamlı inkişafını təmin etməyə çalışır. AzTU-da hər bölməyə yanaşma aşağıdakı əsas prinsiplər əsasında qurulur:

5.1. **Tədris bölmələri:**

AzTU-nun tədris bölmələrində təhsilin keyfiyyətinə böyük diqqət yetirilir. Universitet tədris proqramlarını daim yeniləyir və onları müasir əmək bazarının tələblərinə uyğunlaşdırır. Tədris prosesində tələbələrin praktiki bacarıqlarının inkişaf etdirilməsi ön planda saxlanılır. Bu məqsədlə:

- Yeni texnologiyalar və tədris metodlarından istifadə edilir.
- Tədris proqramları dünya standartlarına uyğunlaşdırılır.
- Tələbələrin laboratoriyalarda praktiki təcrübə qazanması üçün şərait yaradılır.

Qiymətləndirmə forması:

1 Verilmiş formalar əsasında təqdim olunan məlumatların və uyğunluğunun yoxlanması və təhlillərin aparılması;

2 Fəaliyyət planlarına əsasən hesabatlılıqlarının təmin edilməsinə nəzarət aparılması.

5.2. **Elmi-tədqiqat bölmələri:**

AzTU elmi tədqiqat fəaliyyətlərinə böyük əhəmiyyət verir. Universitetin tədqiqat bölmələrində aparılan elmi işlər innovasiyaya və yeni texnologiyaların inkişafına yönəlib. Bu bölmələrdə:

- Beynəlxalq və milli səviyyədə elmi araşdırmalar dəstəklənir.
- Tədqiqatçıların innovativ layihələr üzərində işləməsi təşviq edilir.
- Tələbələr elmi tədqiqatlara cəlb edilərək onların elmi potensialı inkişaf etdirilir.
- Patentləşdirilə bilən elmi işlər üzərində diqqət artırılır.

Qiymətləndirmə forması:

1 Akademik və inzibati heyət üçün təkmilləşdirmə sahələrinin  və təlim planının müəyyən edilməsi;

2 Təqdim olunan məlumatların (hesabat,plan,statistik göstərcilər və s.)  uyğunluğunun yoxlanması və təhlillərin aparılması.

**5.3 İdarəetmə bölmələri:**

AzTU-nun idarəetmə bölmələrində əsas hədəf şəffaflıq, effektivlik və hesabatlılıqdır. Universitetin rəhbər strukturları idarəetmə proseslərinin optimallaşdırılmasına, resursların düzgün idarə edilməsinə və universitetin ümumi fəaliyyətinin səmərəliliyinin artırılmasına çalışır. Bu istiqamətdə:

- İdarəetmə sistemlərinin təkmilləşdirilməsi və rəqəmsallaşdırılması həyata keçirilir.
- Akademik və inzibati işçilərin peşəkar inkişafına dəstək göstərilir.
- Keyfiyyət təminatı idarəetmə strukturunun davamlı inkişafı və qiymətləndirilməsi həyata keçirilir.

Qiymətləndirmə forması:

1 Müəllim və işçi heyət üçün təlim və peşəkar inkişafın təmin edilməsi;

2 Fəaliyyət planlarına əsasən hesabatlılıqlarının təmin edilməsinə nəzarət aparılması.

**5.4 Beynəlxalq əlaqələr və əməkdaşlıq bölməsi:**

AzTU beynəlxalq əlaqələri genişləndirmək və digər universitetlərlə əməkdaşlığı gücləndirmək üçün mütəmadi addımlar atır. Bu bölmədə:

- Tələbələrin və müəllim heyətinin mübadilə proqramlarına cəlb edilməsi təşviq edilir.
- Xarici universitetlərlə birgə tədqiqat layihələri və konfranslar təşkil olunur.
- Təhsil və tədqiqat proqramlarının beynəlxalq akkreditasiya standartlarına uyğunlaşdırılması həyata keçirilir.

Qiymətləndirmə forması:

1 Keçirilmiş prosedurların akkreditasiya standartlarına uyğunluğun təmin edilməsinə nəzarət edilməsi;

2 Seminarların, workshopların keçirilməsi üçün imkanların tapılması və il ərzində olan tədbirlərin statistikasının aparılması.

**5.5 Maliyyə və İnzibati İşlər Bölmələri:**

Bu bölmələr universitetin maliyyə və inzibati idarəetmə işlərini səmərəli təşkil etmək məqsədi daşıyır. Maliyyə resurslarının effektiv idarə olunması, təhsil və tədqiqat üçün lazım olan maddi-texniki bazanın inkişaf etdirilməsi əsas məqsədlər arasındadır.

Qiymətləndirmə forması:

1 Universitetin illik maliyyə hesabatlarını nəzərdən keçirərək borc səviyyələrini, gəlir və xərclərinin izlənilməsi;

2 İnfrastruktur inkişaf planlarının universitetin uzunmüddətli strategiyası ilə, həmçinin təhsil proqramları və tədqiqat təşəbbüsləri ilə necə uyğunlaşdırıldığına nəzarət edilməsi.

AzTU-nun hər bir bölməsi təhsil, tədqiqat və idarəetmə sahəsində keyfiyyəti və davamlı inkişafı təmin etmək məqsədi ilə fəaliyyət göstərir.

## VI. QANUNVERİCİLİK

**Keyfiyyət təminatı qanunvericiliyi** təhsil müəssisələrində, o cümlədən universitetlərdə, keyfiyyətin təmin olunması üçün hüquqi tənzimləmə mexanizmlərini və normativ aktları özündə cəmləşdirir. Təhsil sistemində keyfiyyətin qorunması və inkişaf etdirilməsi üçün dövlət tərəfindən müəyyən edilmiş qanunvericilik bazası, təhsil müəssisələrinin fəaliyyətinin standartlara uyğun aparılmasını təmin edir. Azərbaycanda keyfiyyət təminatı ilə bağlı qanunvericilik əsasən aşağıdakı prinsiplər və normativ aktlarla tənzimlənir:

**Təhsil Haqqında Azərbaycan Respublikasının Qanunu:**

**https://e-qanun.az/framework/18343**

**Akkreditasiya və Sertifikatlaşdırma Qanunvericiliyi:**

**https://e-qanun.az/framework/28108**

**Ali Təhsilin Dövlət Standartları:**

**https://e-qanun.az/framework/19531**

**Ali təhsil müəssisəsinin institusional akkreditasiyası üzrə qiymətləndirmə meyarları**

Azərbaycan TEXNİKİ Universiteti

https://e-qanun.az/framework/52566

**Azərbaycan Texniki Universitetinin Nizamnaməsi**

https://nk.gov.az/az/senedler/qerarlar/azerbaycan-texniki-universitetinin-yeniden-teskili-7977

**Azərbaycan Texniki Universitetinin Strateji İnkişaf Planı**

Keyfiyyətin Təminatı Şöbəsinin Əsasnaməsi



**İlkin sənəd:** 13.07.2022
**Yeni sənəd:** 08.09.2024
**Təsdiq tarixi:** 29.11.2024